*Akif BABAYEV*

# JURNALİSTLƏR ÜÇÜN ON-LİNE VİDEOÇƏKİLİŞİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

***Keywords:*** *video, Internet video, online journalist, multimedia*

## S U M M A R Y

A short video clip is the main form of Internet video. This is a simple and effective way to add a multimedia element to your material. A video clip can be used not only to illustrate a certain moment in your material, but also for sharing in social networks. In addition, people often first watch a short video and then start reading the text on the Internet. The article deals with video shooting for online journalists.

Videoçəkiliş sadəcə videokameranı götürüb rekord düyməsini basmaqla həyata keçirilmir, bu proses çox çətin və mürəkkəbdir. On-line videoçəkilişin özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur. Çəkiliş sadə, qısa və əvvəlcədən düşünülmüş formada həyata keçirilməlidir.

Videoçəkilişdən əvvəl çəkilişin spesifikasından asılı olaraq hansı kameradan (smartfon, kompakt kamera, güzgülü fotokamera (DSLR), videokamera) istifadə ediləcəyini müəyyən etmək lazımdır.

Smartfonlar.

Bütün müasir smartfonlarda .mp4 və ya .mov kimi formatlarda video çəkiliş aparmaq mümkündür. Qısa video və müsahibələrin çəkilişi üçün smartfondan istifadə etmək olar. Smartfonun mikrofonu zəif olduğu üçün eksternal (xarici) mikrofondan istifadə edin. Smartfonlar yüngül və sadə olduqları üçün onları həmişə özümüzlə gəzdiririk və demək olar ki, çəkilişi operativ olaraq həyata keçirə bilirik. Bu üstünlüklərinə baxmayaraq smartfonla videoçəkiliş zamanı stabil görünüş əldə etmək çox çətin olur (kiçik və yüngül olması stabil çəkilişə çox vaxt mane olur).

Kompakt kameralar

Flip və ya Kodak kimi kompakt kameralardan istifadə edə bilərsiniz. Smartfonlardan getdikcə geniş istifadə olunmasına baxmayaraq, Kodak Zi8 və PlayTouch kimi modellərin üstünlüyü onların mikrofon üçün xarici bir girişə malik olmasıdır. Bu kameraların əksəriyyəti video yaza bilir. Smartfonlar kimi, bu kameralar qısa kliplər və ya müsahibələr yazmaq üçün əlverişlidir, Smartfonlardan fərqli olaraq belə kameralar asanlıqla stabil vəziyyətdə qalır, belə hallarda ştativdən (tripoddan) istifadə etmək məsləhət görülür.

Güzgülü və sistemli kameralar

Güzgülü tipli fotokameralar (DSLR) və bəzi müasir kompakt kameralarla böyük sensorun hesabina keyfiyyətli videoçəkiliş aparmaq mümkündür. Xüsusi texniki qurğular vasitəsilə (stedikam və s.) belə kameralarla yüksək keyfiyyətli videogörünüşlər əldə etmək olar. Lakin, bu tipli kameraların əksəriyyətində xarici mikrofonu

qoşmaq üçün qurğu yoxdur. 1 saniyədə 24, 25, 30, 50 və 60 kadr sürətilə çəkiliş aparılarkən neytral filtrdən istifadə etmək lazım olacaq.

Videokameralar

Yaxşı videokameraların keyfiyyətli optikası (obyektivi), quraşdırılmış filtrləri, xarici mikrofonu və qulaqcıqları qoşmaq üçün xüsusi girişləri olduğu üçün, onlar ideal videoçəkiliş üçün əlverişlidir.

İndi isə bəzi şəraitlərdə videoçəkilişin xüsusiyyətlərinə nəzər yetirək.

Video müsahibələr

Qısa bir müsahibə, müəyyən bir anı izah etməyə imkan verir və izləyənlərə baş verən hadisənin xarakterini canlı olaraq göstərə bilir.

- Velosiped ixtira etməyə çalışmayın - müsahibə götürdüyünüz şəxsi gözə oxşayan bir fonda əyləşdirin.
- Görünüşü sabitləşdirmək üçün ştativdən (üçayaq) istifadə edin.
- Müsahibə götürdüyünüz şəxsə kameraya deyil, sizə baxmağa tövsiyyə edin.
- Kameranı gözünüzün səviyyəsində və müsahibə götürdüyünüz şəxsin gözünə uyğun olaraq horizontal vəziyyətdə saxlayın.
- İşıqlandırmaya diqqət yetirin. İşığın haradan düşdüyünə baxın, kameranı elə bir yerə qoyun ki, intervüerin gözlərinə və arxa tərəfindən düşməsin.
- Çəkəcəyiniz insanları çox parlaq və ya ağ fonda yerləşdirməyin.
- Kadrı tərtib edərkən üçdə bir qaydasını ("qızıl kəsişmələr") unutmayın.
- Kadr çərçivənin altında ad və vəzifəni əlavə etmək üçün yer saxlayın.
- Çəkilişdən əvvəl mobil telefonunuzu söndürün.
- Əks-səda yarana biləcəyi yerlərdə müsahibə verməyin.
- Mümkün olduqda həmişə xarici mikrofondan istifadə edin.
- Qulaqlıqlardan istifadə edin.

- Əgər qulaqlığınız yoxdursa, bir neçə saniyəyə səsinizi yazın, sonra yazini geriyə fırladıb səsin keyfiyyətinə qulaq asın.

Online video vasitəsilə bir hekayəni jurnalistlərə çox vaxt sərf etmədən visual formada izah etməyə imkan verir. Online video çəkməyə başlamaq üçün, kamera ilə işləmək və redaktə etməklə yanaşı, müxtəlif formatlarda video çəkilişin üsullarını da bilmək lazımdır.

Sahədə çalışmaq üçün məsləhətlər:

- Videoçəkiliş üçün uyğun bir rahat mövqe seçin.
- Güclü fon və səs-küy olduqda xarici mikrofondan istifadə edin.
- Videonun bir neçə saniyəsini qeyd edin və çəkilişin keyfiyyətinə əmin olmaq üçün çəkdiyiniz klipə baxın, lazım gələrsə düzəlişlər edin.
- İstədiyiniz şeyləri əvvəlcədən düşünün və çəkilişi necə bitirmək istədiyinizi müəyyənləşdirin.

Kadr ardıcıllığı

Çəkəcəyiniz şəhnələrin filmdə və ya televiziya xəbərlərində necə dəyişəcəyini və öz videolarınızın necə qurulacağını düşünün. Bir hekayəni məntiqlə izah etmək vacibdir.

Əsas planlara böyük və orta plan, panorama, "çiyin üzərində" çəkiliş daxildir.

Müxtəlif planlara diqqət yetirmək və maraqlı anları qeyd üçün cəhd edin. Aşağıdakı tövsiyyələrə əməl edin.

Video çəkiliş üçün məsləhətlər:

- İşinizi qabaqcadan planlaşdırın.
- Çəkmək istədiyiniz səhnələrin və planların siyahısını tərtib edin.
- Hər planı minimum 10 saniyə yazın.
- Müxtəlif planların şəkillərinə baxın. Hər bir səhnə üçün ən azı 5 plan hazırlayın.
- Daha çox hərəkət edərək, fiziki cəhətdən əsas çəkiliş obyektlərinə yaxınlaşın.
- Barmaqlarınızı tez-tez tərpətməyin, onların səsi qeydə alınacaq.

Bu tövsiyyələrə riayət edən jurnalistlər operativ olaraq keyfiyyətli videokontentlər yarada bilərlər.

## ƏDƏBİYYAT:


1. Колесниченко А.В. Настольная книга журналиста. Учебное пособие. – М.: Аспект Пресс, 2013
2. «Журналистика и медиарынок», № 3, 2010
3. http://kgu-journalist.ucoz.ru
4. https://tilda.cc